# 2018
# 2022

## "İCMA ƏSASLI MƏKTƏBƏQƏDƏR TƏHSİL"

LAYİHƏNİN 4 İLLİK FƏALİYYƏTİ
DÖVRÜNƏ DAİR HESABAT

İCMA ƏSASLI
MƏKTƏBƏQƏDƏR TƏHSİL

# MÜNDƏRİCAT


Ön söz 1

Layihə haqqında 2

Layihənin əhatəliliyi 3

Struktur 4

Resurslar 5

Onlayn resurslar 6

Tərbiyəçi-müəllimlər 8

Tərbiyəçi-müəllimlərin məsuliyyətləri 9

Tərbiyəçi-müəllimlərin işə qəbulu 10

Təlimlər 11

Pedaqoji kurs 13

Monitorinq 14

3-4 yaşlı uşaqlar 15

Erkən Uşaq İnkişafı 16

Qruplar 17

Şəhər və kəndlər 18

Pandemiya dövründə məktəbəqədər təhsil 19

ilk5il 20

Əməkdaşlıqlar 21

"Erkən Uşaq İnkişafı" – Beynəlxalq Onlayn Forum 22

Sosial təsirlər 23

Valideyn Assosiasiyaları 24

Layihə haqqında fikirlər 25

# Ön SÖZ



## İLAHƏ RƏSULOVA

Layihə rəhbəri

ARTİ-nin əməkdaşı

## MƏKTƏBƏQƏDƏR TƏHSİLİN ÖNƏMİ

*4 il bundan əvvəl, yəni 2018-ci ildə "İcma əsaslı məktəbəqədər təhsil" layihəsi Azərbaycanda erkən uşaq təhsilində bir ilkə imza atdı. Ölkə üzrə uşaq bağçalarının 20%-ə yaxın uşağı əhatə etdiyi dövrdə bu vacib layihə idi. Bir sıra tədqiqatlar göstərir ki, erkən yaşda öyrənmə uşağın gələcəkdə uğurlu təhsili və həyati bacarıqları üçün önəmlidir, daha gec yaşda edilən müdaxilə isə effektiv nəticə vermir. Erkən yaşda təhsilə əlçatanlığı artırmaq və bütün uşaqlara bərabər imkanlar yaratmaq üçün icma əsaslı məktəbəqədər təhsil qrupları çox fərqli və yeni yanaşma oldu. Bu qruplar uşaqların sosiallaşması, əylənməsi, öyrənməsi üçün imkanların olmadığı ərazilərdə, xüsusilə ucqar dağ kəndləri və regionlarda 3-4 yaşlıların müsbət mühitdə inkişaf etməsi və öyrənməsi üçün faydalı bir məkana çevrildi.*

## LAYİHƏNİN FAYDALARI

*Davamlı peşəkar təlimlərə cəlb olunan tərbiyəçi-müəllimlər valideynlərlə birlikdə əməkdaşlıq edərək həm icma əsaslı məktəbəqədər təhsil qrupunda, həm də evdə uşaqlar üçün keyfiyyətli öyrənmə mühiti yaratdılar. Layihədən bəhrələnən digər qrup – valideynlər uşaqların kiçik yaşlarından başlayaraq inkişaf etməsində özlərinin vacib rolunun və bunun övladlarına müsbət təsirinin şahidi oldular. Layihənin region və kəndlərdə qadınların işlə təmin olunması, icma mədəniyyətinin bərpa olunması və valideyn-məktəb arasındakı bağların bərpası və inkişafı kimi sosial təsirləri oldu. Layihə çərçivəsində həyata keçirilən uğurlu fəaliyyətlərdən biri "ilk5il" portalı erkən yaş təhsili ilə bağlı Azərbaycan dilində maarifləndirici, öyrədici resurslara əlçatanlığı təmin etdi.*

## TƏŞƏKKÜR

*Sonda məktəbəqədər təhsil müəssisələrinin alternativi olan icma əsaslı məktəbəqədər təhsil qruplarının fəaliyyəti üçün imkanlar yaratmış Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, UNICEF Azərbaycan, Avropa İttifaqının Azərbaycan Nümayəndəliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Eston təşkilatı – "Uşaq Akademiyası"na və əməkdaşlıq etdiyimiz bütün özəl qurumlara, mütəxəssislərə, ekspertlərə dərin təşəkkürümü bildirirəm!*

# LAYİHƏ HAQQINDA

2017-ci ildə UNICEF tərəfindən pilot layihə kimi başlayan, 2018-ci ildə Avropa İttifaqının Azərbaycan Nümayəndəliyi və UNICEF Azərbaycanın maliyyəsi ilə ölkənin 10 şəhər və rayonunda 50 ümumtəhsil məktəbinin nəzdində fəaliyyət göstərən icma əsaslı məktəbəqədər təhsil qrupları Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən icra olunur.

Uğurlu nəticələrə görə layihə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun maliyyə dəstəyi sayəsində daha da genişləndi.



## MƏQSƏD

Layihənin fəaliyyətində başlıca olaraq bir neçə məqsəd dayanır:

- Ölkə üzrə məktəbəqədər təhsilə əlçatanlığın artırılması;
- Məktəbəqədər təhsilin inkişafı və təhsildə valideynin birgə iştirakını təmin etməklə Azərbaycanda, xüsusilə ucqar və ya əlverişsiz dağ kəndlərində keyfiyyətli təhsil xidmətlərinin həyata keçirilməsi;
- Valideyn-icma-məktəb əməkdaşlığının yaradılması;
- Məktəbəqədər təhsil qrupları vasitəsilə 3-4 yaşlı uşaqların dörd inkişaf sahəsini əhatə edən bacarıqların artırılması;
- Məktəbəqədər təhsilin inkişafı nəticəsində bilavasitə ibtidai təhsilin də keyfiyyətinin artırılması.



# LAYİHƏNİN ƏHATƏLİLİYİ

"İcma əsaslı məktəbəqədər təhsil" layihəsi fəaliyyətə başladığı ilk ildə ölkənin 10 şəhər və rayonunda fəaliyyət göstərirdisə, bu rəqəm ilbəil artaraq 2021-2022-ci tədris ilində 55-ə çatdı.

| 10 | 33 | 50 | 55 |
| --- | --- | --- | --- |
| 2018 | 2019 | 2020 | 2021 |




2021-2022-ci ildə layihənin əhatə etdiyi şəhər və rayonlar

# STRUKTUR



## Layihə Komandası

Layihə rəhbəri və 5 əməkdaşdan ibarət komanda, layihənin, bilavasitə öz vəzifə öhdəliklərinin icra olunmasına cavabdehdir.

## Koordinatorlar

Ölkə üzrə 30 koordinator fəaliyyət göstərir ki, onlar layihənin yerlərdə işlərinin aparılmasını təmin edirlər:

- Qrupların açılması üçün tələblərə uyğun gələn məktəblərin seçilməsi.
- Layihədə tərbiyəçi-müəllim olaraq işləmək istəyən namizədlərin seçim prosesinin təşkili:
  - Namizədlər haqqında məlumatların toplanması.
  - Layihə komandasına təqdim edilməsi.
  - Namizədlər üçün müsabiqə və müsahibələrin təşkil edilməsi.
- Layihə komandası tərəfindən göndərilən:
  - Müvafiq tapşırıqların icrası.
  - Məlumatların tərbiyəçi-müəllimlərə çatdırılması.
- Tərbiyəçi-müəllimlərin müraciətlərinin təhlili və dəstək:
  - Texniki işlərlə bağlı məsələləri koordinatorlar həll edir.
  - Tədris prosesi ilə bağlı məsələlər layihə komandasına yönləndirilir.

## Tərbiyəçi-Müəllimlər

## Valideynlər

# RESURSLAR

İcma əsaslı məktəbəqədər təhsil qrupları fəaliyyətə başlamazdan əvvəl sinif otağı layihənin öncədən təyin etdiyi standartlara uyğun hazırlanır və bütün lazımi resurslarla təmin olunur. Hər bir tədris ilinin sonunda qrup inventarı nəzərdən keçirilir və ehtiyac olduğu təqdirdə resurslar yeniləri ilə əvəz olunur.

Tərbiyəçi-müəllimlərə yeni tədris ilinə dair tədris proqramı və əlavə vəsait təqdim olunur. Uşaqlara isə həm qruplarda, həm də evdə istifadə edəcəkləri iş dəftəri təqdim olunur.

Ümumilikdə, hər bir icma əsaslı məktəbəqədər təhsil qrupu 70-dən çox müxtəlif resurs ilə təmin olunur: mebel (stol, stul, şkaf), 25-ə yaxın müxtəlif uşaq ədəbiyyatı, 20-ə yaxın müxtəlif öyrədici vəsaitlər (kartlar, pazllar, fiqurlar və s.), oyuncaqlar, tədris vəsaitləri (karandaş, plastilin, rəngli kağız və s.)

Uşaqların fiziki inkişafı üçün əlavə olaraq qruplar isveç divarı, böyük motor inkişafı üçün digər idman ləvazimatları ilə təmin olunurlar.

Təqdim olunan resursların hər biri uşaqlar üçün faydalılıq və təhlükəsizlik faktorları nəzərə alınaraq, layihə komandası tərəfindən təyin olunur.








# ONLAYN RESURSLAR

"İcma əsaslı məktəbəqədər təhsil" layihəsi tərbiyəçi-müəllimlər, valideynlər və uşaqlar üçün əyani vəsaitlərlə yanaşı müxtəlif onlayn resurslar da təqdim edir. Onlayn resurslar layihənin vebsaytında *(www.icmalayihesi.edu.az)* və "YouTube" kanalında *(www.youtube.com/icmalayihesi)* ödənişsiz şəkildə təqdim olunur.

## UŞAQLAR ÜÇÜN

### OYNAYIRIQ VƏ ÖYRƏNİRİK | 2020 | 24 BÖLÜM




UNİCEF-in maliyyəsi və Təhsil Nazirliyinin dəstəyi ilə hazırlanmışdır. Teledərslərdə uşaqlara mövzulara dair nəzəri məlumatlar verilməklə yanaşı onların kiçik və böyük motor bacarıqlarının inkişafı üçün praktiki məşğələlər də təqdim olunur.

### NAĞIL BAĞI | 2021-2022 | 35 BÖLÜM




"Nağıl bağı" verilişinin hər bölümü bir nağıla həsr olunub. Nağılların seçimində uşaqların səmərəli, əyləncəli vaxt keçirməsi ilə yanaşı müxtəlif müsbət davranış və xüsusiyyətlərə yiyələnməsi də əsas götürülüb. Rollar xüsusi olaraq analiz olunaraq, emosional və təbii səsləndirilib. Nağılı səsləndirənlər arasında Respublikanın Xalq artistləri, Əməkdar artistlər və digər tanınmış aktyorlar yer almaqdadır.

### NAZLI VƏ DOSTLARI | 2021 | 24 BÖLÜM



Uşaqların marağını cəlb edəcək rəngarəng səhnələr, eləcə də maraqlı məlumatlarla zəngin "Nazlı və dostları" hər həftə müxtəlif mövzularla uşaqların görüşünə gəlib. Verilişin hər bir bölümü "Nəqliyyat", "Musiqi alətləri" və s. kimi müxtəlif mövzuları əhatə edib.

# ONLAYN RESURSLAR

## VALİDEYNLƏR ÜÇÜN

### BİLMƏK İSTƏRDİM Kİ | 2021-2022 | 50 BÖLÜM

"Bilmək istərdim ki" valideynlərin 0-5 yaşlı uşaqlar barədə  ən çox soruşduğu suallara mütəxəssislər tərəfindən qısa şəkildə (1-3 dəq) cavablandırıldığı verilişlər silsiləsidir. Verilişdə iştirak etmiş pedaqoq, psixoloq və pediatorlar 50 fərqli sualı cavablandırıblar.

### CANLI TƏLİMLƏR | 2021

Layihənin "YouTube" kanalında canlı şəkildə baş tutan təlimlərdə mütəxəssislər "3-4 yaşlı uşaqlarla düzgün ünsiyyət qaydaları", "Uşaqlarda davranış pozuntuları" kimi 7 fərqli mövzuda çıxış ediblər. Hər bir təlim bir saat davam edib və sonda iştirakçıların sualları cavablandırılıb.

### PSİXOLOQLA GÖRÜŞLƏR | 2022

Layihədə iştirak edən uşaqların valideynləri üçün psixoloqla pulsuz onlayn görüşlər təşkil olunub. Təxminən bir ay davam edən görüşlərdə 3000-dən çox valideyn qoşulub, psixoloqlar bir sıra əhəmiyyətli mövzulara toxunub. Xüsusilə də, valideynlərin narahat olduğu məsələlərə aydınlıq gətirilib və onların sualları cavablandırılıb.

**3000** Psixoloqlarla onlayn görüşlərdə ölkə üzrə 3000-dən çox valideyn iştirak edib

**4** Layihə çərçivəsində hazırlanan fərqli verilişlərin sayı

**133** 4 veriliş üzrə bölümlərin ümumi sayı

**7** Valideynlər üçün "YouTube"da baş tutan onlayn təlimlərin sayı

# TƏRBİYƏÇİ-MÜƏLLİMLƏR




2018-ci ildə layihə fəaliyyətə başlayanda 50 qrup üzrə 50 tərbiyəçi-müəllim fəaliyyət göstərirdi.

2019-20-ci tədris ilində 268 tərbiyəçi-müəllimin layihəyə qoşulması ilə ümumilikdə 318 tərbiyəçi-müəllim çalışırdı.

2020-21-ci tədris ilində 168 tərbiyəçi-müəllimin layihəyə cəlb olunması ilə ümumilikdə 486 tərbiyəçi-müəllim çalışırdı.

2021-22ci tədris ilində layihədə çalışan tərbiyəçi-müəllimlərin sayı 761-ə çatdı.

# Tərbiyəçi-müəllimin məsuliyyətləri

İcma əsaslı məktəbəqədər təhsil qruplarında çalışan bütün tərbiyəçi-müəllimlərin öz məsuliyyətlərini bilməsi və düzgün qaydada yerinə yetirməsi vacib amildir. Hər bir tərbiyəçi-müəllim işə başlamazdan öncə bu məsuliyyətlərlə yaxından tanış olur.

- Uşaqlara rənglər, hərflər, rəqəmlər və formalar kimi əsas anlayışlar haqqında məlumat vermək.
- İncəsənət və əl işləri ilə, oyun və hekayələr kimi yaradıcı öyrənmə üsulları ilə məşğul olmaq.
- Valideynlər və icma nümayəndələri ilə əməkdaşlıq quraraq tədris prosesini təşkil etmək.
- Qrup otağının təmiz, təhlükəsiz və səliqəli bir mühit olmasını təmin etmək.
- Qrupda nizam-intizam hissini aşılamaq.
- Uşaqların fərdi inkişafını izləmək və valideynlərə hesabat vermək.
- Uşaqlar arasında sosial qarşılıqlı əlaqəni təşviq etmək və onlarda özünə inamı artırmaq.
- Tədris materialları ilə tanış olmaq, lazımı vəsaitləri toplamaq və tədrisə hazırlaşmaq.

# TƏRBİYƏÇİ-MÜƏLLİMLƏRİN İŞƏ QƏBULU

## 1 VAKANSİYALARIN ELANI

Yeni yaradılan qruplar və boş qalan tərbiyəçi-müəllim yerləri üçün vakansiyalar elan olunur. Bu elanlar qrupun yerləşdiyi məktəbdə, şəhər və kənd mərkəzlərində, eləcə də layihənin sosial media hesablarında paylaşılır.

## 2 MÜRACİƏTLƏRİN TƏHLİLİ

Müraciət edən vətəndaşların qeyd olunan vakansiyaya uyğunluqları təhlil olunur.

## 3 MÜSABİQƏ

Təhlil prosesindən sonra uyğun namizədlər müsabiqəyə dəvət olunurlar. Müsabiqə mərhələsi psixoloji test və açıq-tipli suallardan ibarətdir.

## 4 MÜSAHİBƏ

Müsabiqə mərhələsindən uğurla keçən namizədlər müsahibələrə dəvət olunurlar. Müsahibələrdə namizədlərə məktəbəqədər təhsil, erkən uşaq inkişafı ilə bağlı suallar ünvanlanır.

## 5 UYĞUN NAMİZƏDLƏRİN SEÇİMİ

Müsahibə mərhələsində iştirak edən bütün namizədlərin nəticələri təhlil olunur və öncədən təyin olunmuş meyarlara uyğun yüksək nəticə göstərən namizəd tərbiyəçi-müəllim olaraq layihəyə qoşulur.

## 6 TƏLİMLƏR

Seçilmiş namizədlər tədris ili başlamazdan öncə mütləq şəkildə layihənin təşkil etdiyi ilkin təlimlərə cəlb olunurlar.



# TƏLİMLƏR

## TƏRBİYƏÇİ-MÜƏLLİMLƏR

"İcma əsaslı məktəbəqədər təhsil" layihəsində işə başlayan bütün tərbiyəçi-müəllimlər tədris ili ərzində mütləq şəkildə erkən uşaq inkişafı və təhsili ilə bağlı müxtəlif təlim modullarından ibarət əyani və virtual təlimlərə cəlb olunurlar.

### Avqust - Sentyabr

- Tədris proqramı ilə iş
- Öyrənmə muhitinin qurulması
- Sinifin idarə olunması
- Məktəbəqədər yaşlı uşaqların sosial-psixoloji adaptasiyası
- Qiymətləndirmə
- Valideynlər ilə iş
- Uşaq portfoliosu

### Noyabr - Dekabr

- Valideynlərlə iş
- Davranış pozuntusu olan uşaqlarla iş
- Tədris proqramından geri dönüşlər
- Qiymətləndirmə
- İnklüziv təhsil
- Oxu vərdişləri
- İlkin tibbi yardım
- Praktik oyunlar
- Psixoloqlarla görüşlər

### Yanvar - Fevral

- Kuklaların hazırlanması və dərs prosesində tətbiqi
- Tədris proqramı ilə iş
- Guşələr və sərbəst fəaliyyət
- Valideynlərlə iş
- Təşəbbüslərin icra olunması
- Teatrın uşaq inkişafında rolu
- Təşviqat və ünsiyyət bacarıqları

# TƏLİMLƏR

## TƏRBİYƏÇİ-MÜƏLLİMLƏR

### İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI KURSU

Tərbiyəçi-müəllimlərin kompüter bilik və bacarıqlarının artırılması məqsədilə 2022-ci ilin aprel-may aylarında İKT kursu təşkil olunub. 355 tərbiyəçi-müəllimin iştirak etdiyi kursda təcrübəli mütəxəssislər tərəfindən 14 mövzu üzrə tədris aparılıb. İKT bacarıqlarının qiymətləndirilməsindən uğurla keçən icma əsaslı məktəbəqədər təhsil qrupları kompüter və proyektorlarla təmin olunub.

## VALİDEYNLƏR

Valideynlər üçün təlimlər yaş xüsusiyyətləri ilə bağlı uşaqların inkişaf dövrü, məktəbəqədər təhsilin əhəmiyyəti, burada valideynin rolu və bir sıra müxtəlif mövzuları əhatə edib. 4 il ərzində 10-dan çox təlim təşkil olunub. Bu təlimlər 3000-dən çox valideyni əhatə edib.

### PEDAQOQ VƏ PSİXOLOQLA GÖRÜŞLƏR

Hər il layihə çərçivəsində valideynlər üçün pedaqoq və psixoloqlarla görüşlər təşkil olunub. Bu görüşlərin məqsədi valideynlərin psixoloqlara əlçatanlığının təşkili, onları narahat edən məsələlərin müzakirəsi və sualların cavablandırılması olub.

## MENTORLAR

Qruplarda tədris və fəaliyyətlərin keyfiyyətini yaxşılaşdırmaq və tərbiyəçi-müəllimlərə daim dəstək olmaq üçün layihədə çalışan tərbiyəçi-müəllimlər arasından təyin olunmuş meyarlara əsasən mentorlar seçilib. Mentorlar il ərzində peşəkar təlimlərə cəlb olunur və öhdəliyində olan ərazilərdə fəaliyyət göstərən icma əsaslı məktəbəqədər qruplara monitorinqlərə getməklə tərbiyəçi-müəllimlərə dəstək göstərirlər.

### MÖVZULAR

- Mentorluq və qaydaları
- Məşğələlərin müşahidəsi və təhlili
- Sinfin tərtibatı
- STEAM
- Effektiv ünsiyyət bacarıqları

**48** İldə 3 dəfə keçirilən təlimlər ümumilikdə 48 akademik saat təşkil edir

**22** Hər bir tərbiyəçi-müəllim ən azı 22 müxtəlif mövzuda biliklərə yiyələnib

# PEDAQOJİ KURS



2021-ci ilin iyun ayında "İcma əsaslı məktəbəqədər təhsil" layihəsi ilə *Azərbaycan Dövlət Pedaqoji Universiteti*nin birgə əməkdaşlığı çərçivəsində məktəbəqədər təhsil üzrə pedaqoji kursların təşkili ilə bağlı layihəyə start verilib.

## MƏQSƏD

Pedaqoji kursun məqsədi layihədə çalışan tərbiyəçi-müəlllimlərə erkən yaşlı uşaqların inkişafı ilə bağlı nəzəri və praktiki biliklər verməkdir.

## TƏLİMÇİLƏR ÜÇÜN TƏLİM

İlk öncə ADPU-nun Bakı, Şamaxı, Ağcabədi, Cəlilabad, Şəki və Quba filiallarında çalışan müəllimlər arasında müsahibə keçirilib. Seçilən 21 müəllim 9 günlük Təlimçilər üçün Təlimlərə cəlb olunublar.

## İŞTİRAK

Artıq baş tutmuş 3 pedaqoji kursda ümumilikdə 500-dən çox tərbiyəçi-müəllim iştirak edib. İyun-iyul aylarından keçiriləcək 4-cü pedaqoji kursda daha 70 tərbiyəçi-müəllim iştirak edəcək.

## SERTİFİKAT

Hər kursun sonunda müvafiq bilikləri yoxlamaq üçün test imtahanı keçirilir. Bu testi uğurla keçən tərbiyəçi-müəllimlərə ARTİ və ADPU tərəfindən təsdiqlənmiş sertifikatlar təqdim olunur.

## MÖVZULAR

- Erkən yaşlılar üçün Milli Təhsil Kurikulumuna giriş və standartlar
- Erkən uşaq təhsili və uşaq inkişafı
- Öyrətmə strategiyaları, planlaşdırma və qiymətləndirmə/müşahidə
- İnklüzivlik və fərqlilik
- Ailələrlə əməkdaşlıq və valideynlərin cəlb olunması
- Erkən Uşaq Təhsili Kurikulumunda məzmundan kənar dərslərin yaradılması
- Erkən Uşaq Təhsili Kurikulumunun Praktiki Tətbiqi və Planlaşdırılması




Pedaqoji kursun tarixçəsi

# MONİTORİNQ

## MONİTORİNQ NİYƏ KEÇİRİLİR?

Layihə çərçivəsində işlərin gedişatı, nəticəsi, yaranmış və yarana biləcək problemlərin həlli və daha keyfiyyətli təhsilin təmini üçün qruplara səfərlər olunur və monitorinq fəaliyyətləri həyata keçirilir.

Monitorinqlər zamanı qruplar aşağıdakı kriteriyalar üzrə yoxlanılır:

- ümumi vəziyyəti
- müəllimin dərs fəaliyyəti
- təlim nəticələri
- maddi-texniki resursların təminatı

## QİYMƏTLƏNDİRİLMƏ VƏ DƏSTƏK

Monitorinqlər zamanı tərbiyəçi-müəllimlər 4 səviyyə üzrə qiymətləndirilir:

- Zəif
- Orta
- Yaxşı
- Əla

*Orta* və *Zəif* nəticələr üzrə qiymətləndirilmiş müəllimlər ayrıca olaraq təkmilləşdirilmə təlimlərinə cəlb olunur, onların fəaliyyətlərilə bağlı Metodist/Mentorlar tərəfindən dəstəkləyici görüşlər keçirilir.

| MONİTORİNQ | TƏHLİL | TƏLİMLƏR | DƏSTƏK |
|---|---|---|---|
| Qruplara səfər olunaraq monitorinqlər aparılır | Monitorinqlərin nəticələri mütəxəssis tərəfindən təhlil edilir | Zəif və orta nəticə göstərənlərə müvafiq təlimlər təşkil olunur | Tərbiyəçi-müəllimlərə mentor və metodistlər tərəfindən dəstək göstərilir |

İcma əsaslı məktəbəqədər təhsil qruplarının monitorinq prosesi

# 3-4 YAŞLI UŞAQLAR

4 il ərzində layihədə iştirak edən 3-4 yaşlı uşaqların sayı 15 dəfə artıb.

Cəmi 1000 nəfər 3-4 yaşlı uşağın iştirakı ilə 2018-ci ildə fəaliyyətə başlayan layihədə növbəti il uşaqların sayı 6200-ə çatıb.

2020-ci ildə artıq ölkənin 50 şəhər və rayonunu əhatə edən layihədə 10000 nəfər 3-4 yaşlı uşaq iştirak edirdi.

2020-ci ilə nisbətdə 74%, 2018-ci ilə nisbətdə isə 16 dəfə artım ilə layihə 2021-22-ci tədris ilində ümumilikdə 16000 uşağın məktəbəqədər təhsil almasına imkan yaradıb.




**5.5** Layihənin əhatə etdiyi şəhər və rayonların 4 ildə artımı

**16** Qruplarda iştirak edən 3-4 yaşlı uşaqların, eləcə də layihədə çalışan tərbiyəçi-müəllim sayının 4 ildəki artımı

**17** Layihə çərçivəsində fəaliyyət göstərən qrupların 4 ildəki artımı

# ERKƏN UŞAQ İNKİŞAFI

İcma əsaslı məktəbəqədər təhsil qruplarında əsasən 3-5 yaş aralığında uşaqlar iştirak edirlər. Uşaqlara tədris yerli və eston mütəxəssislərdən ibarət işçi qrupu tərəfindən hazırlanmış proqram əsasında keçirilir. Bu tədris proqramı 4 inkişaf sahəsinə yönəlib. Proqramdakı mövzular bir-birilə əlaqələndirilib.

**Rənglərlə iş**
Rənglərlə iş uşaqlarda kiçik motor, rəng duyumu, təxəyyül və emosional inkişafa kömək edir.

**Musiqi və rəqs**
Musiqi və rəqs ilə bağlı fəaliyyətlərdə uşaqların musiqi duyumu və böyük motor bacarıqları inkişaf edir.

**Leqo və plastilinlərlə iş**
Leqo və plastilinlərlə müxtəlif fəaliyyətlər kiçik motorika ilə yanaşı səbir və diqqəti, qrup işini, kiçik motorika, sosial bacarıqları formalaşdırır.




**Nağıllar**
Nağıllar uşaqlarda idrak, nitq, təxəyyül, söz ehtiyatı və dünyagörüşünün inkişafına kömək edir.

**İnkişafetdirici oyunlar**
İnkişafetdirici oyunlar uşaqların zehni və ümumi biliklərinin inkişafına, eyni zamanda əyləncəli vaxt keçirməsinə səbəb olur.

**Sosial bacarıqlar**
Fəaliyyətlərdən sonra əşyaları birlikdə yığışdırmaq uşaqlara sosial bacarıqları, komanda işini və məsuliyyəti aşılayır.

# İCMA ƏSASLI MƏKTƏBƏQƏDƏR TƏHSİL QRUPLARI

**2018**
**50** QRUP
10 şəhər və rayon

**2019**
**321** QRUP
33 şəhər və rayon

**2020**
**500** QRUP
50 şəhər və rayon

**2020**
**850** QRUP
55 şəhər və rayon

2018-ci ildə cəmi 50 qrup ilə fəaliyyətə başlayan "İcma əsaslı məktəbəqədər təhsil" layihəsində 2019-cu ildə qrupların sayı 321-ə, 2020-ci ildə isə 500-ə çatdı. 2021-ci ildə daha 350 yeni qrupun yaradılması ilə hal-hazırda layihədə 850 qrup və bu qruplar üzrə 761 tərbiyəçi-müəllim fəaliyyət göstərir.

# ŞƏHƏR VƏ KƏNDLƏR

Xüsusilə ucqar və ya əlverişsiz dağ kəndlərində məktəbəqədər təhsilə əlçatanlığın artırılması məqsədinə əsaslanaraq İcma əsaslı məktəbəqədər təhsil qruplarının böyük bir hissəsi kəndlərdə açılıb.

Hər hansı şəhər, rayon mərkəzi və ya kənddə dövlət bağçasının olmadığı və ya kifayət qədər uşağı əhatə etmədiyi zaman orada icma əsaslı məktəbəqədər təhsil qrupu yaradılıb.

## ŞƏHƏRLƏR

## QRUPLAR

**235** və ya **27.65%**

Şəhərlərdə (rayon mərkəzləri və qəsəbələr də daxil) 235 icma qrupu (27.65%) var.

**72.35%** və ya **615**

Kəndlərdə 615 icma qrupu (72.35%) fəaliyyət göstərir.

## KƏNDLƏR

## UŞAQLAR

**4506** və ya **28.09%**

Şəhərlərdə yerləşən qruplarda ümumi olaraq 4506 nəfər (28.09%) uşaq qeydiyyatdadır.

2369 nəfəri (52.57%) oğlan

2137 nəfəri (47.43%) qız

**71.91%** və ya **11535**

Kəndlərdə yerləşən qruplarda ümumi olaraq 11535 nəfər (71.91%) uşaq qeydiyyatdadır.

6173 nəfəri (53.52%) oğlan

5362 nəfəri (46.48%) qız

Qeyd: Bu səhifədə qeyd olunan bütün statistik məlumatlar 2021-2022-ci tədris ilinə əsaslanır.

# PANDEMİYA DÖVRÜNDƏ MƏKTƏBƏQƏDƏR TƏHSİL

Pandemiya dövründə "İcma əsaslı məktəbəqədər təhsil" layihəsi çərçivəsində tədris prosesi tərbiyəçi-müəllimlər tərəfindən onlayn qaydada, video-zənglər vasitəsi ilə həyata keçirilib. Tərbiyəçi-müəllimlər tədris kurikulumunun onlayn versiyası ilə təmin ediliblər və onlara layihə komandası tərəfindən onlayn tədris prosesində yaşana biləcək problemlərin həlli ilə bağlı dəstək xidməti göstərilib. Bundan əlavə, layihə çərçivəsində tərbiyəçi-müəllimlər, eləcə də valideynlər üçün məktəbəqədər təhsillə bağlı müxtəlif mövzularda vebinarlar və təlimlər təşkil olunub. Tərbiyəçi-müəllimlər üçün layihənin "YouTube" kanalında onlayn formatda baş tutan təlimlər ümumilikdə 20-ə yaxın mövzunu əhatə edib.

## #EVDƏYARAT

Pandemiya dövründə valideynlərin övladları ilə birgə səmərəli, xoş vaxt keçirməsi məqsədilə layihə tərəfindən "Evdə yarat" adlı müsabiqə keçirilib. Müsabiqənin şərtlərinə əsasən valideynlər ev şəraitində övladları ilə birgə hər hansı bir fəaliyyət həyata keçirməli və fotoşəkillərini layihəyə göndərməli idilər. 200-ə yaxın valideynin qatıldığı müsabiqədə iştirak edən hər bir uşağa hədiyyələr təqdim olunub.



Ağdam rayonu Çəmənli icması



Biləsuvar rayonu Səmədabad icması



Xaçmaz rayonu Köhnə Xaçmaz icması



Şamaxı rayonu Muğanlı icması

# İLK5İL

## MƏQSƏD

Layihə çərçivəsində yaradılan "ilk5il" platformasının əsas məqsədi Azərbaycan dilində erkən uşaq inkişafına dair mövzularda məlumatlara, eləcə də valideyn və uşaqlar üçün müxtəlif faydalı resurslara əlçanlığın təmin olunmasıdır.

## ƏLÇATANLIQ

Veb-sayt, mobil tətbiq və sosial şəbəkədə "Instagram" səhifəsi olaraq fəaliyyət göstərən "ilk5il" tamamilə ödənişsizdir. Mobil tətbiq həm "iOS", həm də "Android" əməliyyat sistemlərində çalışır.

## MƏZMUN

"ilk5il" öz məqsədinə əsaslanaraq, erkən uşaq inkişafı ilə bağlı 4 mövzuda məqalələr təqdim edir:

- Mən valideynəm
- Uşaq inkişafı və psixologiyası
- Sağlamlıq və qidalanma
- Təlim-tərbiyə

Əlavə olaraq, maraqlı mövzularda qısa və praktik məlumatlar təqdim edir:

- Sualım var | Çox maraqlanılan suallara cavablar
- Bilirsinizmi? | Erkən inkişaf dövrünə dair qısa məlumatlar

Digər məzmunlar:

- Bilmək istərdim ki
- Şəkilli nağıllar
- Nağıl Bağı – Səsli nağıllar
- Videodərslər
- Nazlı və dostları
- Uşaq folkloru
- Özün düzəlt
- Sualla öyrət
- Oyunlar:
  - Sürətli düşün
  - Fərqi tap




Soldan sağa: Mobil tətbiqin ana səhifəsi, "Instagram" səhifəsi

**+20000**
"Instagram" səhifəsinin izləyici sayı

**+7000**
Mobil tətbiqin ümumi yüklənmə sayı

**+6000**
Vebsayt və mobil tətbiqdən aylıq "unique" istifadəçi sayı

**15**
Təqdim edilən fərqli məzmun sayı

# ƏMƏKDAŞLIQLAR

## TƏŞƏKKÜR

4 illik fəaliyyət dövründə digər layihələrlə birgə bir neçə uğurlu əməkdaşlıqlara imza atılıb. "İcma əsaslı məktəbəqədər təhsil" layihəsi adından onlara dərin təşəkkürümüzü bildiririk!

## HEYDƏR ƏLİYEV ADINA MÜASİR TƏHSİL KOMPLEKSİ

### #BİRLİKDƏOXU

İcma əsaslı məktəbəqədər təhsil qruplarında, eləcə də cəmiyyətdə uşaqların mütaliəyə həvəsinin artırılması məqsədilə 2022-ci ilin mart ayında “#BirlikdəOxu” adlı aksiya keçirilib. “İcma əsaslı məktəbəqədər təhsil” layihəsinin təşəbbüsü ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin birgə başlatdığı sosial aksiyaya kompleksin işçi heyəti və şagirdləri qoşulublar. Toplanan 500 kitab müvafiq icma əsaslı məktəbəqədər təhsil qruplarına çatdırılıb.



## PEŞƏ TƏMAYÜLLÜ SİNİFLƏRİN TƏŞKİLİ

### #BİRGƏFƏALİYYƏT

Ölkənin bir neçə şəhər və rayonlarında yerləşən məktəblərdə həm “İcma əsaslı məktəbəqədər təhsil” layihəsinin qrupları, həm də “Peşə təmayüllü siniflərin təşkili” layihəsinin sinifləri fəaliyyət göstərir. Belə ki, bu siniflərdə peşə təhsili alan şagirdlər könüllü surətdə icma əsaslı məktəbəqədər təhsil qrupları üçün davamlı olaraq müxtəlif faydalı fəaliyyətlər həyata keçirirlər.



## MƏKTƏBLİNİN DOSTU

### #OYUNCAĞINIPAYLAŞ

*"Oyuncağını paylaş”* aksiyasına əsasən məktəblilərin könüllü şəkildə təqdim etdikləri oyuncaqlar ölkənin müxtəlif regionlarında icma əsaslı məktəbəqədər təhsil qruplarında iştirak edən uşaqlara göndərilib. "Məktəblinin dostu" layihəsinin əməkdaşları oyuncaqların yığılması və çeşidlənməsində bilavasitə iştirak ediblər



### PSİXOLOQLA GÖRÜŞ

"Məktəblinin dostu" layihəsində çalışan psixoloqlar 2021-ci il noyabr ayı ərzində 773 tərbiyəçi-müəllimlə qrup şəklində görüşlər keçirib, onların tədris zamanı müvafiq olaraq yaşadıqları çətinliklər və problemlərlə bağlı suallarını cavablandırıblar.



## STEAM

### TƏLİM

2021-ci ilin mart ayında “İcma əsaslı məktəbəqədər təhsil” layihəsində çalışan mentorlar üçün “STEAM” layihəsi tərəfindən 3 günlük təlimlər keçirilib. Təlimlərin əsas məqsədi STEAM layihəsinin məktəbəqədər təhsildə tətbiq oluna biləcək tədris komponentlərinin mentorlar vasitəsilə tərbiyəçi-müəllimlərə çatdırılması olub.



# ERKƏN UŞAQ İNKİŞAFI:
# YENİ YANAŞMALAR VƏ TƏCRÜBƏLƏR

"T-Network" ilə
ƏMƏKDAŞLIQ

## HAQQINDA

2022-ci il 3 dekabr tarixində Azərbaycan Respublikası Təhsil Nazirliyi, ARTİ və “T-Network” təcrübə və kommunikasiya platformasınının dəstəyi ilə “İcma əsaslı məktəbəqədər təhsil” layihəsi çərçivəsində “Erkən uşaq inkişafı: yeni yanaşmalar və təcrübələr” adlı beynəlxalq onlayn forum baş tutub.

Ümumilikdə 9 yerli və xarici spikerin yer aldığı onlayn forumda 9 fərqli mövzu barədə ətraflı məlumat verilib.

450-ə yaxın iştirakçının qatıldığı, yerli və xarici mütəxəssislərin çıxış etdiyi beynəlxalq forumun məqsədi erkən uşaq inkişafı ilə bağlı tədqiqat və təcrübələri bölüşmək, cəmiyyəti bu haqda maarifləndirmək, erkən uşaq inkişafında təhsilin önəmi və inkişaf mexanizmləri haqqında məlumat vermək olub.

## MÖVZULAR

- 3-5 yaşlı uşaqlarda anormal inkişafın əlamətləri və əlaqəli risklər
- Ailə mühitinin uşaqların sosial, emosional və intellektual inkişafına təsiri
- Azərbaycanda icma əsaslı erkən uşaq təhsili liderləri arasında pedaqoji rəhbərliyin şərhləri
- Bir uşaq dəyişir, dünya dəyişir
- Erkən uşaq inkişafında Androqogikanın rolu
- Erkən uşaq inkişafında təbiət oyunu
- Uşaqların erkən inkişafı və iqtisadi artım
- Valideynlər üçün erkən uşaqlıq inkişafı üçün alternativ uşaq bağçaları və resursların modeli
- Yaradıcılığın inkişafı üçün innovativ uşaq kitablarının nəşri

## SPİKERLƏR



**Ülviyyə Mikayılova**
ADA Universitetinin Təhsil fakültəsinin baş müəllimi



**Nurten Akkuş**
Tərbiyəçi-müəllim, Dünyanın ən yaxşı 10 müəllimi nominasiyasının qalibi (TÜRKİYƏ)



**Sevinc Məmmədova**
Corc Vaşinqton Universitetinin Təhsil Siyasəti və İdarəetmə fakültəsinin doktorantı (ABŞ)



**Laura Conson**
St.Louis İntensiv Uşaq İnkişafı proqramının müəllimi (ABŞ)



**Aytəkin Hüseynli**
Vaşinqton Universitetinin Braun Sosial İş və İctimai Sağlamlıq Məktəbinin tədqiqatçısı və müəllimi (ABŞ)



**İlahə Rəsulova**
"İcma əsaslı məktəbəqədər təhsil" layihəsinin rəhbəri



**Qoşqar Məhərrəmov**
"T-Network" platformasının baş mütəxəssisi



**Elmina Kazımzadə**
Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin müəllimi



**Yelena Parfyonova**
“Uşaq Akademiyası” Adaptasiya, Korreksiya və İnkişaf Mərkəzinin təşkilatçısı (Estoniya)



**Cəfər Mənsimi**
Moderator
"T-Network" platformasının koordinatoru

# SOSİAL TƏSİRLƏR

"İcma əsaslı məktəbəqədər təhsil" layihəsinin fəaliyyəti bir sıra müsbət sosial təsirlərə də yol açıb.

## SOSİALLAŞMAQ

Qruplarda valideynlər tədris prosesində iştiraka təşviq olunur və davamlı olaraq müxtəlif təlimlərə cəlb olunurlar. Bu öz növbəsində icmalarda yaşayan valideynlərin, təlimlər zamanı isə digər şəhər və rayonlarda yaşayan valideynlərin bir-birləri ilə əlaqə saxlamağına, sosiallaşmağa, icmada və cəmiyyətdə baş verən proseslərdə fəal iştirak etmələrinə səbəb olub.

## MAARİFLƏNDİRMƏ

Valideynlər həm tərbiyəçi-müəllimlərin köməyi ilə, həm də təlimlərə qoşulmaqla məktəbəqədər təhsilin, erkən yaşda uşaq inkişafının, bu inkişaf dövründə valideyn rolunun və iştirakının nə dərəcədə əhəmiyyətli olduğuna şahid oldular.

## MƏŞĞULLUQ

Layihə bilavasitə ölkə üzrə qadınların işlə təmin olunmasında rol oynayıb. 2021-2022-ci tədris ilində layihədə 761 tərbiyəçi-müəllim fəaliyyət göstərib ki, onların da hamısı qadındır. 761 nəfərin 481-i (63%) üçün "İcma əsaslı məktəbəqədər təhsil" layihəsi yeganə iş yeridir.

Layihə çərçivəsində 14 nəfər əvvəlcə valideyn, daha sonra isə tərbiyəçi-müəllim olub. Valideynlər tədris prosesində iştirak edərək, müəyyən təcrübə qazanaraq növbəti illərdə layihədə çalışmaq üçün vakansiyalar üzrə müraciət ediblər.

## BİRGƏ FƏALİYYƏTLƏR

"İcma əsaslı məktəbəqədər təhsil" layihəsi icma mədəniyyətinin bərpa olunması və valideyn-məktəb arasındakı bağların bərpası və inkişafına yol açıb. 4 il ərzində valideynlərlə birlikdə bir sıra layihələr, təşəbbüslər həyata keçirilib.

## BİRGƏ FƏALİYYƏT NÜMUNƏSİ



Şəmkir rayon Zəyəm-Cırdaxan kənd Sərdar Məmmədov adına 1 saylı tam orta məktəbdə yerləşən icma əsaslı məktəbəqədər təhsil qrupunun tərbiyəçi-müəllimləri və valideynləri bir ay ərzində birlikdə çalışaraq məktəb həyatinin ağaclıq bir sahəsində uşaqların rahat və təhlükəsiz oyunlar oynaması, əylənməsi məqsədi ilə kiçik park yaradıblar. Həmin ərazidə abadlıq işləri görülüb, uşaqların oyunlar oynaması və əylənməsi üçün yelləncək, basketbol səbəti, sürüşkən və bu tip digər oyun vəsaitləri düzəldilib.

**481** "İcma əsaslı məktəbəqədər təhsil" layihəsi 481 tərbiyəçi-müəllimin yeganə iş yeridir

**14** Layihə çərçivəsində əvvəlcə valideyn, daha sonra isə tərbəyəçi-müəllim olaraq fəaliyyətə başlayanların sayı

# VALİDEYN ASSOSİASİYALARI

## MƏQSƏD

Valideyn Assosiasiyalarının yaradılmasında məqsəd məktəblə valideynlər arasında bağın qurulmasına dəstək olmaq, valideynlərin məktəbin tədris prosesində, fəaliyyətlərində bilavasitə iştirakını təşviq etməkdir. Bu assosiasiyalar Salyan, Sabirabad, Quba, Xaçmaz, Biləsuvar, Masallı, Cəlilabad, Goranboy, Ağcabədi və Şəmkirdəki icma əsaslı məktəbəqədər təhsil qruplarının yerləşdiyi məktəblərdə fəaliyyət göstərir.

## TƏLİMLƏR

Hər il Valideyn Assosiasiyaları üçün təlimlər keçirilib ki, burada əsas məqsəd valideynləri məktəb-valideyn əməkdaşlığının düzgün qurulması, icma fəaliyyətlərinin təşkili, məktəbəqədər təhsilin əhəmiyyəti və burada valideynin rolu, uşaqların yaş xüsusiyyətləri ilə bağlı inkişaf dövrü, onlarda çox rast gəlinən inkişaf gerilikləri, yeni nəsil uşaqların xarakterik xüsusiyyətləri, valideyn tipləri haqqında maarifləndirmək olub.





# LAYİHƏ HAQQINDA FİKİRLƏR

İcma əsaslı məktəbəqədər təhsil qruplarında iştirak edən uşaqların valideynləri və tərbiyəçi-müəllimlər arasında keçirilən sorğuya əsasən onların layihə barədə fikirlərini təqdim edirik:

## NADİRƏ HEYDƏROVA | VALİDEYN

### MASALLI RAYONU, ŞATIROBA KƏNDİ

Övladım Daun sindromu ilə doğulub. Oğlumun icmaya qəbulu mənim üçün onun ilk uğuru idi. Oğlum icmadan əvvəl cəmiyyət arasında çox sıxılırdı, təkidlə evə qayıtmaq istəyirdi. Amma icmaya qoşulması ilə sosiallaşdı, uşaqlarla birlikdə oynamağa, onların, müəlliminin hərəkətlərini təkrarlamağa başladı. Kənddən kənarda bağçalar var, amma yol uzaq olduğu üçün hər valideyn övladını apara bilmir. İcma əsaslı məktəbəqədər təhsil qrupunun açılması bu problemi həll etdi

## GÜLƏR ƏKBƏROVA | VALİDEYN

### MASALLI RAYONU, QƏRİBLƏR KƏNDİ

Kənd yerində yaşadığımız üçün harasa getmək lazım olanda gəlin qaynanası və ya həyat yoldaşı ilə gedir. İcma açılandan qızımı tək aparıb gətirirəm. Ailəmizdə də baxışlar çox dəyişib. Təlimlərə qoşulmağa yoldaşım icazə verir. Amma icmadan əvvəl harasa tək getməyə icazə vermirdilər. 3 ildir qonşu kənddən bura gəlin gəlməyimə baxmayaraq, çox az adamı tanıyırdım. İcmadan sonra yeni valideyinlər tanıdım, hətta xeyir şərimizə də yığışıb gedirik.

## HÜSEYNOVA AYGÜN | VALİDEYN

### AĞCABƏDİ RAYONU, KƏBİRLİ KƏNDİ

İcmadan öncə həyat yoldaşım qoymurdu ki, bir qohum evinə gedim. Amma artıq övladımı icmaya aparıb gətirirəm. Bu mənim üçün həyatımda böyük dəyişiklikdir. Övladım tam danışa bilmirdi, amma icmaya getdikdən sonra nitqində xeyli irəliləmə var. Həmçinin davranışına da müsbət təsir etdi və uşaqlarla ünsiyyət qurmağı öyrəndi

## ELMARƏ SÜLEYMANOVA | TƏRBİYƏÇİ-MÜƏLLİM

### QUBA RAYONU, 2-CI NÜGƏDİ KƏNDİ

İcmadan əvvəl həyatda hər şeydən əlini üzmüş, həyatımda yaxşı nəyinsə olacağına inanmayan, ümidsiz biri idim və düşünürdüm ki, "mənim artıq nəyəsə nail olmağa gücüm yoxdur, mən heç nə bacarmaram". Amma, icmaya tərbiyəçi-müəllim seçilməyim həyatımda yeni səhifə oldu. Özümə inamım artdı, güclü bir qadın olduğuma inandım. Artıq beynimdə “mən bacarmaram” düşüncəsi yox, mən edə biləcəyəm, mən bacaracağam düşüncəsi var. Artıq öz ayaqlarımın üstündə dura bilirəm. Həmçinin, balaca körpələrin mənə olan sevgisindən gündən günə daha da ruhlandım, güc aldım.

## ƏSGƏROVA AYTƏN | TƏRBİYƏÇİ-MÜƏLLİM

### GORANBOY RAYONU, VEYİSLİ KƏNDİ

“Özümə inamım artıb, daha sağlam və gümrah olmuşam. Ailəmdəki bütün ab-hava dəyişdi. Mənim qrupumda iştirak edən uşaqların daha sonra 5 yaşlıların məktəbəqədər qrupunda göstərdiyi müsbət nəticələr göz qabağındadır. Onlar dərslərdə daha fəal, daha aktiv və diqqətlidirlər. Ailəmin mənəvi dəstəyi, icmadakı valideynlərin dəstəyi, layihənin dəstəyinin bütün bu uğurlarda payı daha çoxdur.

## AĞAZADƏ SÜBNAZ | VALİDEYN

### MASALLI RAYONU, XIL KƏNDİ

İcmadan öncə evdə qapalı olurduq. Uşaqla harasa getmək, nə isə etmək kənd yeri olduğu üçün çətin olurdu. Amma icma həm özümün, həm də övladımın həyatında dəyişiklik yaratdı. Qadın kimi evdən çıxıb ictimai yerlərdə olmaq kimlərisə tanımaq, ətrafımı digər icma valideynləri ilə tanışlıq nəticəsində genişləndirmək şansı verdi. İcma övladımla yanaşı məni də 180 dərəcə dəyişib. Daha müasir və uşaqlara zaman ayıran bir qadın və qayğıkeş bir ana olmuşam

HEYDƏR ƏLİYEV FONDU

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

ARTİ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

unicef

# İCMA ƏSASLI MƏKTƏBƏQƏDƏR TƏHSİL

www.icmalayihesi.edu.az

İyun, 2022